# Azərbaycan–Türkiyə birliyi: “Geosiyasi layları” tərpədən müttəfiqlik



## I məqalə

*Azərbaycan – Türkiyə dostluğu və qardaşlığı sarsılmazdır, əbədidir və xalqlarımızın qarşılıqlı inkişaf və tərəqqisinin hərəkətverici qüvvəsidir.*

***Heydər ƏLİYEV,***
***Ümummilli lider***

## Fundamental əsaslı konstruktiv addımlar

Tarix elmləri doktoru Eynulla Mədətli məqalələrinin birində yazır ki, 1994-cü il oktyabr ayının 19-da Türk dövlətləri başçılarının Zirvə görüşündə qəbul edilmiş “İstanbul Bəyannaməsi”nin imzalanma mərasimində Heydər Əliyev deyirdi: “Biz bir kökdənik, bir birdilli xalqlarıq. Bizim milli ənənələrimiz çox yaxındır, bir-birinə bənzərdir, oxşardır. Ona görə də, bunlar hamısı xalqlarımızı hələ müstəqil olmadığımız vaxtlarda bir-birindən ayırmayıb, bir-birinə bağlayıb, bir-birilə daha çox əlaqədə saxlayıb. İndi isə xalqlarımız öz müstəqilliklərini əldə edəndən sonra, müstəqil dövlətlər kimi dünyada tanınandan sonra biz tarixi ənənələr əsasında, həmin fundamental əsaslar üzərində bundan sonra da irəli getməliyik”.

Ulu öndərin Türkiyə–Azərbaycan münasibətlərini “fundamental əsaslar üzərində qurmaq” tövsiyəsi iki qardaş dövlətin müasir mərhələdə əməkdaşlıq fəlsəfəsinin ana xəttini təşkil edir.

İndi müşahidə edilən proseslər də göstərir ki, bu məsələ getdikcə regional və qlobal miqyasda daha aktual mövqeyə çıxır. Öncə, bir sıra güclü siyasi dairələr məsələyə inkarçılıqla yanaşdılar. Məntiq belə idi – “kimin sifarişini yerinə yetirirlər, kimlərin yanında durmağa çalışırlar”. Çox qısa müddətdə anladılar ki, keçmiş ədalətsiz, qərəzli və inkarçı siyasi şüurları du dəfə də onları (inkarçıları) dalana dirəyir. Çünki realpolitika meydanında Ankara və Bakı, sözün həqiqi mənasında, fundamental əsaslara, ədalətə, hüquqa və mənəviyyata söykənən konstruktiv addımlar atdılar. Bu iki qardaş dövlət yalnız özlərinin deyil, bütövlükdə, regionun və Avrasiya qitəsinin sabit və təhlükəsiz inkişafı üçün çalışdıqlarını əməllərində sübut etdilər. Bunun qəbul edilməsinin faktoloji sübutları dünyanın böyük dövlətlərinin başçılarının Azərbaycan Prezidentinə dalbadal əməkdaşlıq mesajları verməsindədir. Üç böyük dövlətin nümunəsində bunu görə bilərik. Onlar ABŞ, Rusiya və İrandır.

## ABŞ: Zəngəzur dəhlizi açılmalıdır

Cəmi 3-4 il bundan öncə Vaşinqtonun Cənubi Qafqaz istiqamətində ab-havası fərqli idi. Amerika siyasi elitası özünü çox yuxarıdan və həlledici faktor olan fenomen kimi təqdim edirdi. Türkiyə və Azərbaycana qarşı açıq və gizli ədalətsiz addımların şahidi olduq. Onların sırasında həyat yoldaşı erməni olan bir senator canfəşanlıq edirdi. Nensi Pelosinin də münasibətini hər kəs bilir. Amerika Senatının kuluarlarında kimlərin hansı oyunlar arzusunda olduğu haqqında aidiyyətli dairələr çox yaxşı bilirlər. Türkiyə və Azərbaycana qarşı ədalətsiz addımlar, təxribatlar və bunların fonunda “yumşaq” formada təcavüzkar Ermənistanı müxtəlif məsələlərdə dəstəkləmək cəhdləri, təəssüf ki, dünyanın ən güclü dövlətinin “siyasi-diplomatik sandığı”ndan çıxırdı.

İndi isə ABŞ prezident səviyyəsində Azərbaycanı etibarlı tərəfdaş, əməkdaşlığı inkişaf etdirmək üçün arzu etdiyi suveren ölkə və həta, Zəngəzur dəhlizini açmaq niyyətinə dəstək verən güclü dövlət kimi görür. Azərbaycan və Türkiyə heç bir zaman konstruktiv təkliflərə və addımlara qapalı olmamışlar. Türkiyə F-16-ları da qəbul edir, Azərbaycan da bütün sferalarda olduğu kimi Zəngəzur məsələsində də Vaşinqtonun mövqe dəyişikliyinə həm sayğılı yanaşır, həm də praktiki siyasi-diplomatik müstəvidə əməkdaşlığa tam açıqdır.

## Rusiya: müttəfiqliyə davam

Sözün həqiqi mənasında, Prezident İlham Əliyev Rusiya istiqamətindəki siyasətdə inqilab etmişdir. Tarixi baxımdan çox qısa bir müddətdə rəsmi Bakı, faktiki olaraq, düşmən mövqeyində olan çox güclü bir qonşusuna özünün haqlı olduğu ilə yanaşı, ən etibarlı müttəfiq ola biləcəyini də sübut etdi! Keçən əsrin 90-cı illərində Kremlin siyasətindən “Ermənistan qardaş, dost və Cənubi Qafqazda yeganə etibarlı müttəfiqdir” fikri “sel kimi region dövlətlərinin üzərinə axırdı”! Bir neçə beynəlxalq tədbirdə və ikili müzakirələrdə ulu öndər Heydər Əliyevin hansı fəallıq və qətiyyətlə Moskvanın bu qərəzli mövqeyi ilə savaşdığı haqqında çoxlu fakt var. Proseslər göstərdi ki, ilk illərdə Azərbaycan liderinin bu fəaliyyətinə diqqət etmək istəməyən Rusiya rəhbərliyi real faktlar qarşısında geri çəkilməyə başladı. Nəhayət, Moskva Bakı ilə strateji müttəfiqliklə bağlı müqavilə imzaladı. Bu, politoloqların diqqət etmədiyi bir gerçək məqamı ifadə edirdi.

Rusiya Azərbaycanla strateji müttəfiqlik sənədini nə zaman imzaladı? Şuşa Bəyannaməsindən sonra. Şuşa Bəyannaməsinin məğzi nədən ibarətdir? Azərbaycan və Türkiyə iki müstəqil dövlətlər kimi bir-birinin daxili işlərinə qarışmadan real müttəfiqliyin bütün şərtlərini ödəməklə birgə fəaliyyət göstərəcəklər. Bu fəaliyyətin təməlində üç faktor dayanır: ədalət, hüquq və müsətqil dövlətçiliyə sayğı! Rusiya anladı ki, müasir dövrdə iki ən yaxın dövlət belə “böyük qardaş-kiçik qardaş” siyasi-ideoloji dixotomiyası ilə münasibət qurmurlar. Bu faktın arxasında Türkiyədən çox Azərbaycan dövlətinin gücü dayanır! Maraqlıdır, lakin gerçəkdir! Ulu öndər “bir millət, iki dövlət” kəlamı ilə qardaş Türkiyəyə böyük qardaşlığın keçərli olmadığını necə anlatdısa, qonşu Rusiyaya da eyni qətiyyətlə bərabərhüquqluluq, ədalət və müstəqilliyə sayğıdan kənarda münasibətlərin alınmayacağını başa saldı.

Bu mənada, Rusiyanın Azərbaycanla strateji müttəfiqlik sənədini Şuşa Bəyannaməsindən dərhal sonra imzalaması təsadüfi deyildir – birbaşa Azərbaycan müstəqil siyasətinin və müstəqilliyinin etirafıdır.

Deməli, bəzilərinin (hətta Azərbaycanda) təqdim etməyə çalışdığı kimi, qətiyyən söhbət Rusiyanın Azərbaycan üzərində hökmranlığından gedə bilməz, əksinə son 300 ildə ilk dəfədir ki, Azərbaycan lideri Moskvaya anlada bilmişdir ki, “müstəqil Azərbaycanla əməkdaşlığı bərabərhüquqlu və qarşılıqlı sayğı əsasında qura bilərsən”! Bu çərçivədən kənarda strateji müttəfiqlik baş tuta bilməz.

İndi Rusiya Prezidenti Vladimir Putin yüksək səviyyədə etiraf edir ki, “Ermənistan düşmənlərlə oturub-durur”! Konkretləşdirsək, anlamı ondan ibarətdir ki, “Ermənistan artıq Moskvaya dost deyildir və hətta düşməndir”. Azərbaycan haqqında isə bunu demir. Deməli, bu mənzərə də Azərbaycan liderinin güclü siyasətinin bəhrəsidir!

Bununla ümumiləşdirmək olar ki, Cənubi Qafqazda ABŞ, Türkiyə və Rusiyanın münasibətlərinin təməlində hər üçünün Azərbaycanın müstəqilliyini real sayğılı münasibətləri, hüquqilik və konstruktiv əməkdaşlıq niyyətləri dayanır. Eyni zamanda, Azərbaycan–Türkiyə birliyi, müttəfiqliyi bu konfiqurasiyanın “döyünən qəlbi”dir! Bunu da hər kəsin bilməsi və bu regiondakı fəaliyyətində nəzərə alması qaçılmaz gerçəklikdir!

Lakin regional mənzərə bununla tamamlanmır.

## İran: İlham Əliyevin möhtəşəm “U” dönüşü

İran tarix, mədəniyyət, dövlətçilik və geosiyasi fakt olaraq Azərbaycana dost və qardaşdır. Lakin mürəkkəb daxili siyasi dinamikaya malik, sirli diplomatiyası ilə seçilən bu qonşu dövlət Azərbaycan məsələsinə süni həssaslıqla yanaşmaqla çox neqativ mühit yaratdı. Dini məzhəbçiliyi siyasi müstəvidə düşmənçilik ideologiyasına çevirməklə müsəlman dövlətçiliyinin düşmənlərinin dəyirmanına su töküdü. Ancaq həm İran dövlət və cəmiyyət olaraq özəl ənənəsi olan ölkədir və orada ayıq başlar kifayət qədərdir, həm də Azərbaycan Respublikası ehtiyatlı, təmkinli, lakin qətiyyətli və ədalətli siyasəti ilə rəsmi Tehranın mövqeyini dəyişməsinə nail oldu. Bunu şişirtməsiz Azərbaycan Prezidentinin siyasi kontekstdə möhtəşəm “U” dönüşünə nail olması kimi qiymətləndirmək lazımdır. Çünki geniş bir geosiyai məkanda İransız qalıcı konstruktiv geosiyasi düzən yaratmaq imkansız görünür.

Prezident İbrahim Rəisinin azərbaycanlı həmkarı ilə son müzakirələri bu baxımdan ciddi hadisədir. İndi onun davamının olacağına böyük ümidlər vardır. Gec və ya tez Azərbaycan Respublikası–İran–Türkiyə geosiyasi əməkdaşlıq platforması konkret məzmun alacaq və tam hüquqi əsasa oturacaqdır.

## Qarşı tərəfdən baxış

İndi bu proseslərin “o biri tərəfinə” baxaq. Konkret olaraq müxtəlif dairələrin mərkəzində Azərbaycan–Türkiyə birliyinin dayanmasına və onun faktiki olaraq Cənubi Qafqazda sülh, əməkdaşlıq və təhlükəsizliyin “döyünən qəlbi” olmasına verilən reaksiya birmənalı deyildir. Açıq surətdə ümumi geosiyasi konfiqurasiyaya qarşı çıxa bilmirlər, lakin onun “döyünən qəlbi”nə qarşı müxtəlif siyasi, diplomatik, ideoloji, hərbi və informasiya təxribatları törətməyə çalışırlar. Bizim üçün daha düşündürücü olanı Azərbaycan Resublikası daxilində bir sıra KİV orqanlarının üstüörtülü və ibarəli surətdə həmin dairələrə züy tutmağa çalışmasıdır. Öz ağılları və məntiqləri ilə hesab edirlər ki, Azərbaycan cəmiyyəti bu təxribatçı davranışı obyektiv münasibət kimi qəbul edir. Böyük yanlışlıq içərisindədirlər. Azərbaycan tükü-tükdən seçən bir cəmiyyət, ölkə və dövlətdir! Azərbaycan insanı Vətənsevərdir, haqq-ədalət tərəfdarıdır. Onun üçün ailə kimdirsə, dövlət də odur! Azərbaycanlı dinini, dilini, adət-ənənəsini sevər! Tarixi müstəvidə onu aldatmaq mümkün deyil! Boşuna özünüzü yormayın!

Həm də hər kəs bunun bir daha şahidi olacaqdır. Öncə yaranmış geosiyasi mənzərənin Azərbacyan–Türkiyə birliyi işığında bir sıra özəlliklərinə nəzər salaq.

## Ermənistanın siyasi-diplomatik riyakarlığı

Ermənistan siyasi şüuru dəqiq bilir ki, potensialı, imkanları və praktiki təcəssüm şansları olduqca zəifdir. Çünki o toplum dövlətçilik şüuru baxımından çox qüsurludur. Kifayət qədər psixoloji natamamlıq kompleksi mövcuddur. Tarixən dövlət qurmaqda elə bir uğuru və buna görə də təcrübəsi yoxdur. Keçən əsrin əvvəllərində uzunmüddətli yalan, şişirtmə və qonşulara böhtanla “qidalandırılan” erməni “dövlətçilik şüuru” avtomatik olaraq başqasına şər atmaq üzərində köklənmişdir. Onlara bununla bağlı Qərb və Rusiya tərəfdən o qədər yalan aşılanmışdır ki, indi özlərini o yalanların cazibəsindən xilas edə bilmirlər. Burada situasiya son dərəcə sadədir: əsl müstəqil dövlətçilik şüuru başqasına nifrət üzərində formalaşa bilməz, onun yeganə mənbəyi öz dövlətçiliyinə sevgi ilə və anlamlı yanaşmadır. Özünün dövlətçiliyinə anlayış və sevgi ilə yanaşa bilməyən heç bir toplum real müstəqil dövlət qura bilməz. Daim bu və ya digər formalarda başqalarının oyuncaqları olacaqlar.

İndi mən bilmirəm, N.Paşinyan bunları fərqli formada öz xalqına anlatmağa çalışmaqda nə dərəcədə səmimidir. Lakin bu kimi səslərin erməni siyasi şüurunun özündən eşidilməsi maraqlı dəyişiklikdir. Ancaq kifayətedici deyildir. Orada maskalı, ikiüzlü, riyakar siyasi və diplomatik priyomların davam etdiyini görürük.

**(ardı var)**

***Füzuli QURBANOV,***
***XQ-nin analitiki, fəlsəfə elmləri doktoru***